

Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 40 (23.682)

27 fevral 2021-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

XX əsrdə bəşər tarixinə Xocalı soyqırımı kimi daxil olan qanlı faciənin 29-cu ildönümü ilə əlaqədar fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva faciə qurbanlarının xatirəsinə Bakının Xətai rayonunda ucaldılmış abidəni ziyarət ediblər.

Prezident İlham Əliyev Xocalı soyqırımı abidəsinin önünə əklil qoyub, faciə qurbanlarının xatirəsini ehtiramla yad edib.

Birinci xanım Mehriban Əliyeva abidənin önünə gül dəstəsi qoyub, faciə qurbanlarının xatirəsinə ehtiramını bildirib.

* * *

Fevralın 26-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yerli və xarici media nümayəndələri üçün mətbuat konfransı keçirib.

Media nümayəndələrinə müraciət edən Prezident İlham Əliyev Xocalı faciəsi haqqında məlumat verərək deyib ki, Xocalı soyqırımı Ermənistan faşizminin təzahürü idi. Bu soyqırımı dünya ictimaiyyəti tərəfindən tanınır, 10-dan çox ölkə bu hadisəni rəsmən soyqırımı kimi tanımış, təsdiq etmişdir və bu proses davam etdirilir. Azərbaycan dövləti, eyni zamanda ölkəmizin ictimai təşkilatları bu sahədə böyük fəallıq göstərirlər və bu gün dünyada Xocalı soyqırımı haqqında kifayət qədər dolğun məlumat vardır.




Sonra yerli və xarici media nümayəndələrinin iştirakı ilə mətbuat konfransına başlanılıb. Dövlətimizin başçısı mətbuat konfransında Türkiyənin "TRT Haber" telekanalı, Rusiyanın TASS agentliyi, "Ukraina-24" telekanalı, Böyük Britaniyanın "Teleqraf" qəzeti, ümumilikdə, 35 media qurumunun 50-dək sualını cavablandırıb. Prezident İlham Əliyev jurnalistlərin suallarına dörd dildə – Azərbaycan, türk, ingilis və rus dillərində cavab verib.

# Naxçıvanda Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilib





Fevralın 26-da Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Xocalı soyqırımının 29-cu ildönümü ilə əlaqədar Naxçıvan şəhərinin Dövlət Bayrağı Meydanındakı Xatirə Kompleksini ziyarət etmiş, abidə önünə güllər qoymuş, Xocalı soyqırımı qurbanlarının xatirəsini ehtiramla yad etmişdir.

Dövlət qurumlarının nümayəndələri də abidə önünə gül qoymuşlar.

1992-ci il fevral ayının 25-dən 26-na keçən gecə Azərbaycanın Xocalı şəhərində Ermənistan silahlı qüvvələrinin bölmələri, Dağlıq Qarabağdakı erməni terrorçu dəstələri və keçmiş sovet ordusunun Azərbaycanın Xankəndi şəhərində yerləşən 366-cı motoatıcı alayının şəxsi heyəti tərəfindən soyqırımı törədilmişdir. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayət Ermənistan Respublikasının ovaxtkı siyasi rəhbərliyi tərəfindən təşkil edilmişdir.

29 il əvvəl törədilmiş Xocalı soyqırımı zamanı mühasirədə olan şəhərə ağır hərbi texnika yeridilərək, dinc əhali xüsusi qəddarlıqla qətlə yetirilmişdir. Yandırılan şəhərdən qaçıb xilas olmaq istəyən insanlara aman verilməmiş, sakinlər yollarda, meşələrdə xüsusi amansızlıqla öldürülmüşdür. Bu cinayət beynəlxalq hüququn norma və prinsiplərinin və əsas insan hüquqlarının kobudcasına pozulmasıdır. İnsanlığa qarşı törədilmiş bu dəhşətli cinayət əməli nəticəsində 613 dinc azərbaycanlı qətlə yetirilmişdir ki, onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i qoca olmuşdur. Eyni zamanda 487 dinc sakin ağır yaralanmış, 1275 nəfər girov götürülmüşdür. 150 nəfərin taleyi hələ də məlum deyil. Soyqırımı nəticəsində 8 ailə tamamilə məhv edilmiş, 25 uşaq hər iki valideynini, 132 uşaq isə valideynlərindən birini itirmişdir.

Ümummilli liderimiz Heydər Əliyevin xalqın tələbi ilə yenidən hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımına siyasi qiymət verilmişdir. Dahi şəxsiyyətin təşəbbüsü əsasında 1994-cü ildə Azərbaycan Respublikasının Milli Məclisi Xocalı soyqırımına siyasi-hüquqi qiymət vermiş, 26 fevral tarixi "Xocalı soyqırımı günü" elan olunmuş və soyqırımı haqqında həqiqətlər dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev demişdir: ***"Xocalı soyqırımı adi cinayət deyil. Xocalı soyqırımı yüz il də bundan sonra bizim gələcək nəsillərimizin xatirəsindən çıxmamalıdır. Hər bir gələcək nəsil gərək bilsin ki, bizim millətimizə qarşı belə vəhşilik edilibdir".***

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə haqq səsimizin dünya ictimaiyyətinə çatdırılması, Xocalı soyqırımının tanınması istiqamətində ardıcıl iş aparılır. Soyqırımı faktlarının və erməni vəhşiliklərinin dünya ictimaiyyətinə çatdırılmasında Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyası xüsusi rol oynamışdır. Artıq Meksika, Pakistan, Çexiya, Peru, Kolumbiya, Panama, Honduras, Sudan, Qvatemala və Cibuti parlamentləri tərəfindən qəbul edilən müvafiq sənədlərdə Xocalıda törədilmiş kütləvi qırğın soyqırımı aktı kimi qəbul edilmişdir. Rumıniya, Bosniya və Hersoqovina, Serbiya, İordaniya, Sloveniya, Şotlandiya və Paraqvay parlamentləri, eləcə də Amerika Birləşmiş Ştatlarının 22 ştatının icra və qanunvericilik orqanları Xocalı faciəsini qətliam kimi qiymətləndirərək qətiyyətlə pisləmiş, İslam Əməkdaşlıq Təşkilatı Ermənistanı təcavüzkar, Xocalı faciəsini isə soyqırımı kimi tanımışdır.

Ermənistan 2020-ci ilin iyulunda və sentyabr ayının sonlarında atəşkəsi yenidən pozaraq Azərbaycan Ordusunun mövqelərini və mülki yaşayış məntəqələrini atəşə tutmuşdur. Ölkəmizə qarşı təcavüzün qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək, uzun müddət davam edən işğala son qoymaq məqsədilə 2020-ci il 27 sentyabr tarixində Azərbaycan Ordusunun həyata keçirdiyi əks-hücum əməliyyatı nəticəsində 30 il işğal altında olan torpaqlarımız azad edilmiş, tarixi qələbə qazanılmışdır. 2020-ci il noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistanın dövlət başçıları tərəfindən imzalanmış üçtərəfli Bəyanata əsasən yüz minlərlə insana uzun müddət gözlədikləri öz dədə-baba torpaqlarına qayıtmaq və fundamental hüquqlarını bərpa etmək imkanı yaradılmışdır.

XX əsrin sonlarında dünya dövlətlərinin gözü qarşısında baş verən Xocalı soyqırımı təkcə Azərbaycan xalqına qarşı deyil, eyni zamanda bəşəriyyətə qarşı törədilmiş cinayətdir. Ölkə Prezidenti cənab İlham Əliyev demişdir: ***"Xocalı faciəsi erməni millətçilərinin yüzilliklərboyu türk və Azərbaycan xalqlarına qarşı apardığı soyqırımı və etnik təmizləmə siyasətinin qanlı səhifəsidir... Məqsədimiz Xocalı faciəsinə beynəlxalq hüquqi-siyasi qiymət verilməsinə, onun təşkilatçılarının, ideoloqlarının və icraçılarının dünya ictimaiyyətinin gözündə ifşasına və cəzalandırılmasına nail olmaqdır. Bu, bir tərəfdən Xocalı müdafiəçilərinin və şəhidlərinin ruhu qarşısında bizim insanlıq və vətəndaşlıq borcumuzdur. Digər tərəfdən isə insanlığa qarşı yönəlmiş bu cür qəddar cinayətlərin gələcəkdə təkrar olunmaması üçün mühüm şərtdir".***

Həmin gün muxtar respublikanın rayonlarında da Xocalı soyqırımı qurbanlarının xatirəsi yad edilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## “Xocalı faciəsi insanlığa qarşı cinayətdir” mövzusunda interaktiv dərs



Heydər Əliyev adına Hərbi Lisey



Ordubad rayon Nüsnüs kənd tam orta məktəbi

*Ölkəmizin müstəqilliyi uğrunda mübarizədə canlarını qurban vermiş Vətən övladlarının xatirəsini yad etmək, məktəblilərə XX əsrin ən dəhşətli faciələrindən olan Xocalı soyqırımı haqqında məlumat vermək, məktəblilərdə düşmənə qarşı barışmazlıq hissi, Vətənə, torpağa sədaqət və məhəbbət duyğularını gücləndirmək məqsədilə fevralın 26-da muxtar respublikanın ümumtəhsil məktəbləri ilə Naxçıvan şəhərindəki Xatirə Muzeyi arasında “Xocalı faciəsi insanlığa qarşı cinayətdir” mövzusunda interaktiv dərs keçilib.*

Dərsdə qeyd olunub ki, əvvəldən planlaşdırılmış əməliyyatın qəddarlığına baxmayaraq, Xocalı sakinləri son anadək özlərini əsl qəhrəman kimi aparmış, axır nəfəslərinədək vuruşaraq düşmən qarşısında əyilməmişlər. Vurğulanıb ki, Xocalı soyqırımını törətməkdə ermənilərin əsas məqsədi xalqımızın mübarizə əzmini qırmaq və əhəmiyyətli geostrateji mövqeyə sahib olmaq idi. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə ermənilər Xocalıda misligörünməmiş soyqırımı törətdilər. Dağlıq Qarabağın ən iri yaşayış məskəni 366-cı motoatıcı alayın, eləcə də xarici ölkələrdən gətirilmiş muzdlu döyüşçülərin hesabına ermənilərin əlinə keçdi. Döyüşlərdə canlı qüvvə az olsa da, silah-sursat çatışmasa da, qəhrəman Xocalı döyüşçüləri düşmənə qarşı inadlı mübarizə aparmışlar. Mühasirədən çıxıb xilas olmağa çalışan dinc sakinlər yollarda, meşələrdə xüsusi amansızlıqla qətlə yetirilmişdir. Dərsdə Xocalı faciəsinin ağır nəticələrindən, xalqımıza vurduğu maddi və mənəvi zərbələrdən, dünya hərb tarixində ikinci belə dəhşətli qətliama təsadüf edilməməsindən bəhs olunub.

Şagirdlərə həmin dövrdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyevin ilk dəfə Naxçıvanda Xocalı soyqırımı haqqında xüsusi bəyanat verməsi, ulu öndərin 1993-cü ildə Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra Xocalı faciəsinə hüquqi-siyasi qiymət verilməsi, bu soyqırımı haqqında həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görülməsi haqqında ətraflı məlumat verilib.

Qeyd olunub ki, bu gün Azərbaycanın müzəffər Ordusunun zəfər yürüşü, düşmənin sonadək bütün torpaqlarımızdan qovulması, Qarabağın, xüsusən də xalqımızın ləyaqət və qürur simvolu Şuşanın işğaldan tam azad olunması, Dağlıq Qarabağ münaqişəsinin uğurla və ədalətlə həll edilməsi, həm də yaşadığımız bölgədə sülhə və təhlükəsizliyə əvəzsiz töhfədir. Azərbaycan xalqı və dövləti Xocalı faciəsini heç vaxt unutmur və unutmayacaqdır.

İnteraktiv dərs Naxçıvan Muxtar Respublikasının 200-dən çox ümumtəhsil məktəbində izlənilib.

Həmin gün muxtar respublikanın bütün ümumtəhsil məktəblərində ilk dərs saatı da Xocalı soyqırımına həsr edilib.

**Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti**

## Xocalı şəhidlərinin xatirəsi muxtar respublikanın rayonlarında da anılıb




Bədnam qonşularımız 1905-1906, 1918-1920-ci illərdə xalqımıza qarşı həyata keçirdikləri etnik soyqırımı siyasətini 1992-ci ildə başəriyyət tarixində ən amansız qətliam olan Xocalı faciəsi ilə davam etdirdilər. Bütün soyqırımlarda düşmənin məqsəd və hədəfi eyni idi – Azərbaycan torpaqları hesabına “böyük Ermənistan” dövlətini qurmaq. Xocalı soyqırımı bədnam qonşularımızın ölkəmizə qarşı başlatdıqları müharibənin ən dəhşətli səhifəsi, insanlığa qarşı ən böyük cinayətidir. Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş Xocalı soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində bir vəhşilik aktıdır. Bu soyqırımı haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, Xocalı soyqırımının dünyanın bir çox dövlətləri tərəfindən tanınmasında ümummilli lider Heydər Əliyevin və Azərbaycan Respublikası Prezidentinin misilsiz xidmətləri vardır.

Hər il olduğu kimi, bu il də fevralın 26-da muxtar respublikamızın rayonlarında Xocalı şəhidlərinin xatirəsi anılıb. Rayon icra hakimiyyəti, idarə, müəssisə və təşkilatların nümayəndələri mədəniyyət evlərində Xocalı faciəsini əks etdirən pannoların önünə tər qərənfillər qoyublar.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı, Prezident cənab İlham Əliyevin siyasi iradəsinin təzahürü olaraq qazanılan tarixi zəfər nəticəsində Xocalı qətliamının da qisası alınmış oldu. 44 günlük Vətən müharibəsi zamanı Azərbaycan ərazi bütövlüyünü tam təmin edərkən əlləri Xocalı faciəsi qurbanlarının qanına bulaşmış erməni vandallarının bir çoxu məhv edildi. Xocalı qatilləri vaxtilə törətdikləri cinayətin cəzasını layiqincə aldılar.



## Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib

1997-ci il fevral ayının 25-də görkəmli dövlət xadimi Heydər Əliyevin imzaladığı Sərəncamla hər il fevralın 26-sı saat $17^{00}$-da Azərbaycan Respublikasının bütün ərazisində Xocalı soyqırımı qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilir.

Naxçıvan Muxtar Respublikasında da hər il olduğu kimi, dünən Xocalı soyqırımı qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, nəqliyyatın hərəkəti dayandırılıb. Həmin vaxt xətdə olan sərnişin qatarlarının da hərəkəti dayandırılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin məlumatı

Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti 2021-ci il fevral ayının ikinci yarısında bir sıra qərarlar qəbul etmişdir.

Belə ki, “Naxçıvan Muxtar Respublikasında 2021-ci il 1 yanvar vəziyyətinə torpaqların növləri, mülkiyyətçiləri və istifadəçiləri üzrə torpaq balansı”na müvafiq olaraq 2020-ci ildə mövcud 177382 hektar kənd təsərrüfatına yararlı torpaq sahəsinin 54857 hektarını əkin, 2042 hektarını çoxillik əkmələr, 3040 hektarını biçənək, 32 hektarını dinc, 104429 hektarını örüş və 12982 hektarını həyətyanı torpaq sahələrinin yararlı hissəsi təşkil etmişdir. Şahbuz, Kəngərli, Sədərək rayonlarında yeni suvarma şəbəkələrinin qurulması, Şərur, Babək, Ordubad, Culfa, Şahbuz, Kəngərli rayonlarında və Naxçıvan şəhərində meyvə bağlarının, üzümlüklərin salınması və həmin ərazilərin su ilə təmin edilməsi nəticəsində 2021-ci il 1 yanvar vəziyyətinə suvarılan torpaqların sahəsi 63054 hektar olmuşdur ki, bu da ötən illə müqayisədə 823 hektar çoxdur.

Nazirlər Kabinetinin 2021-ci il 15 fevral tarixli Qərarına əsasən xüsusi təhsilə və evdə təhsilə cəlb olunanların valideynlərinə və ya digər qanuni nümayəndələrinə uşaqlarını xüsusi təhsil müəssisəsinə, sağlamlıq və reabilitasiya mərkəzlərinə və tibb müəssisələrinə aparıb-gətirmək üçün ayda 50 manat məbləğində müavinət müəyyən edilmişdir. Qeyd edək ki, ötən dövrlərdə bu məbləğ 22 manat olmuşdur.

Bununla yanaşı, Nazirlər Kabinetinin 2021-ci il 22 fevral tarixli Qərarı ilə un istehsalı ilə məşğul olan şəxslərə satılan unun hər tonuna görə müəyyən edilmiş qaydada 2021-ci il fevralın 1-dən mayın 1-dək olan dövrdə subsidiya verilməsi nəzərdə tutulmuşdur.

Həmçinin Nazirlər Kabinetinin 2021-ci il 22 fevral tarixli digər bir Qərarına əsasən “Naxçıvan Muxtar Respublikasında dövlət məktəbəqədər təhsil müəssisəsini maliyyələşdirmə normativləri”ndə dəyişikliklər edilmişdir. Dəyişikliyə əsasən dövlət məktəbəqədər təhsil müəssisəsinin maliyyələşdirmə normativləri Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən dövlət məktəbəqədər təhsil müəssisələrinin cari fəaliyyətini həyata keçirmək üçün vahid büdcə təsnifatına uyğun büdcə vəsaitlərindən olan tələbatı müəyyən etmək məqsədilə tətbiq edilmişdir.

Nazirlər Kabinetinin 2021-ci il 23 fevral və 25 fevral tarixli qərarları ilə “Naxçıvan Muxtar Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri”ndə dəyişikliklər edilmişdir.

Eyni zamanda Nazirlər Kabinetinin 2021-ci il 24 fevral tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin strukturuna daxil olmayan tabeliyindəki müəssisələrə işə qəbul Qaydaları” təsdiq olunmuşdur. Qaydalara əsasən mədəniyyət müəssisələrinə işə qəbulun aparılması Naxçıvan Muxtar Respublikasının Dövlət İmtahan Mərkəzi və Mədəniyyət Nazirliyi tərəfindən müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə ali və ya orta ixtisas təhsili müəssisəsini bitirmə haqqında sənəd almış, xarici ölkədə aldığı təhsil sənədi qanunvericiliklə müəyyən edilmiş qaydada tanınmış Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Müsabiqədə iştirak etmək üçün müraciətlər müsabiqə elan edildiyi gündən etibarən 30 gün ərzində mərkəzin internet portalı vasitəsilə elektron formada qəbul edilir.

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 26 fevral tarixli Qərarı ilə “Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən tətbiq edilən cərimələrin toplanan və həmin orqanın hesabına köçürülən vəsaitdən istifadə Qaydası”nda edilmiş dəyişikliyə əsasən nazirlik tərəfindən tətbiq edilən cərimələrdən toplanan və nazirliyin işçilərinin sosial müdafiəsinin gücləndirilməsi məqsədilə həmin orqanın hesabına köçürülən vəsaitin miqdarı və “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş xidmətlərə və hüquqi hərəkətlərə görə ödənilən dövlət rüsumunun və qanunvericiliyə uyğun olaraq tətbiq edilən cərimələrdə daxil olan vəsaitlərin həmin xidmətləri və hüquqi hərəkətləri həyata keçirən və ya təşkil edən dövlət orqanlarının, habelə dövlət notariat ofislərinin xəzinə hesabına köçürülməsi, istifadə edilməsi, uçota alınması və hesabatın təqdim edilməsi Qaydaları”nda edilmiş dəyişikliyə görə müvafiq dövlət rüsumunun miqdarı ümumi vəsaitin 18 faizi həcmində müəyyən edilmişdir.

Qəbul olunan normativ-hüquqi aktların tam mətni ilə Naxçıvan Muxtar Respublikasının Hüquqi Aktların Dövlət Reyestrində (*www.huquqiaktlar.nakhchivan.az*) tanış olmaq mümkündür.

## “Vikipedia könüllüləri” layihəsi çərçivəsində görüş



*Naxçıvan Muxtar Respublikası Gənclər Fondu və Naxçıvan Dövlət Universitetinin birgə əməkdaşlığı ilə universitetdə “Vikipediya könüllüləri” layihəsi çərçivəsində görüş keçirilib.*

Tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov qeyd edib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan gənclər siyasəti bu gün ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla həyata keçirilməkdədir. Vurğulanıb ki, muxtar respublikamızda da yaradıcılıq axtarışlarının stimullaşdırılmasına, milli ruhda tərbiyəsinə, onların sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsinə ciddi önəm verilir.

Universitetin Elm və innovasiyalar şöbəsinin müdiri Rza Məmmədov ali təhsil ocağında tələbələrin hərtərəfli inkişafı üçün müxtəlif tədbirlərin həyata keçirildiyini qeyd edib və magistrantları “Gənclər Fondu”nun layihəsi ilə bağlı daha fəal olmağa səsləyib.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun bölmə müdiri Məhəmmədəli Məmmədli yeni yaradılan “Vikipediya könüllüləri” layihəsi barəsində məlumat verib. Azərbaycan Respublikası ilə bağlı bu gün internet resurslarına ciddi tələbat olduğunu diqqətə çatdıran Gənclər Fondunun bölmə müdiri magistrantları bu layihədə birgə əməkdaşlığa çağırıb.

Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun aparıcı mütəxəssisi Sübhan Rəhimli slayd və videoçarxlar vasitəsilə layihənin məqsədi, gələcək fəaliyyəti haqqında ətraflı məlumat verib. Qeyd edilib ki, ölkəmiz və muxtar respublikamızla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında gələcəyin mütəxəssisləri olacaq magistrlərin əməyindən istifadə olunmalıdır.

Sonda layihə üzrə könüllü tələbələr qeydiyyata alınıblar.

**Etibar DƏRBƏNDƏLİYEV**
*Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə III kurs tələbəsi*

Son iki ildir ki, dəmir yolu işləmir. Təchizat işi pozulmuş, ərzaq və yanacaq ehtiyatı tükənmişdir. Nəqliyyatın hərəkəti dayandığından son günlər unun qurtarması, çörək qıtlığı daha çox narahatlıq doğurmuşdur. Bahalıqdan, qıtlıqdan çox danışırıq. Belə ki gedir, hələ çox danışacağıq. Sovetlər dönəmində dövlət hər şeyi qarmalayıb əlinin altına yığdığından, əhalinin təminatını “öz öhdəsinə götürdüyündən” hamıda pis bir vərdiş yaranıb. Hər şeyin hazırını almaq. Bəs vəziyyətdən çıxış yolunu nədə axtarmalıyıq? Yeganə ümid yolumuz buna qalıb ki, ellikcə işləyək, məhsul istehsalını artıraq. Allaha şükür, torpaqlarımız hər şey yetirir. Sitrus bitkilərindən tutmuş meşə almasınadək, sənaye əhəmiyyətli təbii ehtiyatlarımız da bizə bəs edəsi qədərdir.

## Naxçıvan dünən

## Çıxış yolu işləməkdədir



Kəndli kəndliliyini unudub, o da gözünü dükan-bazara dikib ki, nə vaxt mağazalara un gələcək. Bu yaxınlarda bir sürücü tanışım mənə bir sual verdi: “Torpaqlar camaata paylansa, hökumət daha bizə un verməyəcək?”

Çoxumuz təsəvvür edə bilmirik ki, kəndli dən, un, yağ, pendir və digər kənd təsərrüfatı mallarının istehsalçısı olmalıdır, istehlakçısı yox. Daha doğrusu, kəndli bu deyilənləri satmalıdır. Bəs bu gün vəziyyət necədir? Kəndlərə gedən avtobuslara nəzər salsaq, bunu aydın görərik. Çörəkdən tutmuş yumurtaya, ətə qədər (tapılanda) hamı şəhərdən alıb kəndə aparır. Doğrudur, muxtar respublika rəhbərinin gördüyü operativ tədbirlər nəticəsində xeyli miqdarda un və başqa qida məhsulları gətirilmiş, problem nizama salınmışdır. Ancaq qonşu payı ilə qarın doymaz, – demişlər. Axı deyirlər ki, aclıq müharibədən də qorxulu və təhlükəli bəladır. Ulu babalarımızın dediyi kimi, taknədə çörəyi olanın düşməndən qorxusu olmaz. Dədə-babadan qızılı yox, anbarlarında taxılı çox olan məmləkət daha varlı sayılıb. Unutmamalıyıq ki, bolluq nağıllarımızın sonunda göydən düşən üç alma deyil ki, biri sənə, biri mənə, biri də əgər insaflı olsaq, o birinə çata.

Pis günün ömrü az olar, – deyiblər. Amma gəlin ümidimizi üzməyək, qarşıda bizi yaxşı günlər gözləyir.

**“Şərq qapısı”, 1992-ci il**

***Bu sətirlər 29 il bundan öncə çətinliklərlə üzləşdiyimiz bir dövrdə ürək yanğısı ilə qələmə alınıb. O vaxtlarda ki həmin illərdə Naxçıvan bir tərəfdən xain qonşularımızın hücumlarına məruz qalır, təkbaşına ona inadla müqavimət göstərir, torpaqlarımız igid oğulların şücaəti, canı-qanı bahasına qorunurdu. Digər tərəfdən isə qədim yurdumuzun blokadaya salınması ilə bağlı yaranmış çox ciddi problemlərlə mübarizə aparmalı olurdu. Buna, əslində, ölüm-dirim mübarizəsi də deyə bilərik. Nə mavi yanacaq var idi, nə işıq. Sərhədimizə amansız hücumlar edilir, başımıza yağdırılan bombalar yurdumuzu xarabaya çevirir, əzizlərimiz gözlərimizin önündə qurban gedirdi. Həmin illərdə çox çətin sınaqla müharibə və ondan da betər olan aclıqla üzləşmişdi naxçıvanlılar...***

## və bu gün

## Çəkilən zəhmət bəhrəsini verir

Bütün bunlara baxmayaraq, qazandığımız müstəqilliyi itirməməyə səy göstərir, torpağımızı qoruyur, bir addım belə, geri çəkilmirdik. Yurdumuzun sakinləri bir olduqca, çiyin-çiyinə verdikcə, sanki bəlalar bizdən qorxub geri çəkilirdi. Qıtlıq çox çətin olsa da, naxçıvanlılar yardımlaşma duyğusunu, əzmkarlıq, dəyanət hissini heç vaxt itirmədilər. Yadımdadır, məhəlləmizdə bir başsız ailə var idi. Ana işsiz qalmışdı üç körpəsi ilə. Qonşular talonla aldıqları çörəkdən, çətinliklə, od qiymətinə tapdıqları ərzaqdan onlara da pay verirdilər. Bunu, adətən, gün batanda edirdilər ki, heç kim görməsin. Həmin çətin günlərdə nənəm deyərdi ki, İkinci Dünya müharibəsində də neçə illər aclığa, qıtlığa dözdük. İndi də dözərik, təki torpağımıza düşmən ayağı dəyməsin...

Həmin illərdə bu məqalənin dərc olunması onu göstərirdi ki, görkəmli dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən muxtar respublika sakinləri gələcəyə böyük ümidlə baxır, qaldırılan bütün məsələlərin öz həllini tapacağına inanırdılar. Bu inam da əbəs deyildi. Ona görə ki, ulu öndərimiz Naxçıvana gəldikdən sonrakı dövrdə bizim üçün xəyal kimi görünən bir çox problemi qısa zamanda həll etmişdi.

Hər qaranlıq gecənin bir işıqlı sabahı var, – deyirlər. Bizim nurlu sabahımız isə dahi rəhbərin gəlişi ilə açıldı. Bəli, ulu öndərimizin yurduna qayıtması hamıda – səngərdə döyüşən əsgərdə də, çörək növbəsində dayanan sakinlərdə də böyük ruh yüksəkliyi yaratdı. Bol bəhrəli günlərə isə çətin günlərdən sonra gəldik. Naxçıvan sakinləri ilə bərabər qazsız, işıqsız, soyuq, şaxtalı günlərdə çıraq işığında yaşayıb gərgin əmək sərf edərək böyük nailiyyətlərin təməlini atdı yurdumuzun dahi oğlu. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün mümkün variantın ən düzgününü seçib gərginliyi aradan qaldırsın. İlk olaraq düşmən hücumlarının qarşısı alındı, 70 ildir, ayrı düşdüyümüz əzəli qardaşımız Türkiyə dövləti ilə danışıqlara başlanıldı. Araz çayı üzərində tikintisi aparılan “Ümid” körpüsü, sözün həqiqi mənasında, ümidlərimizin gerçəkləşdirilməsi üçün bir vasitə oldu. Oradan ərzaq məhsulları və ən önəmlisi isə qida, un tədarük edildi. Torpaq islahatı aparıldı. O çətin vaxtlarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işləyən ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə Ali Məclisin 1992-ci il aprelin 6-da keçirilən sessiyasında “Naxçıvan Muxtar Respublikasında zərərlə işləyən kolxoz və sovxozlar haqqında” və “Rentabelli işləyən kolxoz və sovxozların ictimai



mal-qarasının özəlləşdirilməsi barədə təkliflər haqqında” qərarlar qəbul edildi. Həmin il Culfa rayonunun Şurud və Gal kəndlərindəki torpaqlar kəndlilərə verildi və beləliklə, uğurlu yolun ən əhəmiyyətli mərhələsinə başlanıldı. Çünki uzaqgörən insanlar bilirdilər ki, torpağa bağlanmaq, onun qayğısını çəkmək kəndlinin xoş güzəranının təminatıdır. Taxıl əkini başlasa da, yaranan problemlərin aradan qaldırılması üçün zəhmət və zaman gərək idi. 70 illik sovet dönəmində xalqımızın və onun sərvətlərinin amansızcasına istismar edilməsinə baxmayaraq, götürülən mənfəətdən ölkəmizin inkişafına heç bir vəsait sərf edilmədiyi üçün doğma Azərbaycanımızın bir parçası olan qədim Naxçıvanımızın ucqar dağ kəndləri, sərhəd yaşayış məntəqəsi olan yurd yerləri gözdən-uzaq, könüldəniraq qalmışdı. Ögey münasibət, laqeydlik üzündən evlərin sırası seyrəlmiş, düzəni pozulmuş, şənliyi dağılmışdı. Ən adi məişət qayğıları məngənəsində əziyyət çəkən adamlar üzü şəhərə və nisbətən yaxşı yaşayışı olan kəndlərə üz tutmuşdular. Boşalan belə yurd yerlərinin biçilməyən biçənəklərini, əkilməyən torpaqlarını fürsət gözləyən namərd qonşularımız gözaltı etmişdi. Yetmiş illik hakimiyyəti dövründə hər şeyi qarmalayıb əlinin altına yığan əhalinin təminatını “öz öhdəsinə götürən” imperiya bunu heç də xalqımızı sevdiyi üçün etmirdi. Onların bir məqsədi var idi – o da əsarət zəncirini daha da sıxlaşdırıb bərkitmək. Sovetlər dağılanda elə bir vəziyyət yaranmışdı ki, asılı iqtisadiyyat sistemi ilə idarə edilən respublikamızda, onun ayrılmaz hissəsi olan yurdumuzda, demək olar ki, bütün sənaye, istehsal müəssisələri bağlanıb iflasa uğramışdı. Çıxış yolumuz işləməkdə, torpaqdan ikiəlli yapışmaqda idi o zamanlar. Bütün problemlərin həlli üçün isə zaman, birlik, rəhbərə inam və zəhmət lazım idi. Məqalənin süjet xəttinə diqqət yetirəndə bir daha görürük ki, bu məsələlər müəllifi də narahat edirdi...

Zəhmətkeş naxçıvanlılar ulu öndərin dərin siyasi uzaqgörənliyi, onun davamçılarının gərgin zəhməti, fədakarlığı sayəsində addım-addım bugünkü gözəl günlərə çatdılar. Muxtar respublikamızda ərzaq təhlükəsizliyinin təmini məqsədilə müxtəlif Dövlət proqramlarının qəbul edilməsi, qarşıya qoyulmuş vəzifələrin uğurlu icrası bu məsələnin kompleks həllinə imkan verdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun yanvarın 28-də imzaladığı Sərəncamla təsdiq edilən “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı”nın icrası da gələcək illərdə doğma yurdumuzda məşğulluğun artırılmasına öz töhfəsini verəcək.

Regionda əlverişli biznes mühitinin yaradılması, ərzaq məhsullarının istehsalı üzrə sahibkarlığın inkişaf etdirilməsi, dövlət investisiyalarının aqrar bölmənin infrastruktur təminatının yaxşılaşdırılmasına yönəldilməsi, suvarılan torpaq sahələrinin genişləndirilməsi və su ehtiyatlarından səmərəli istifadə, yeni kənd təsərrüfatı



texnikalarının alınıb gətirilərək güzəştli şərtlərlə torpaq mülkiyyətçilərinə verilməsi bu baxımdan çox əhəmiyyətlidir. Sevindirici haldır ki, bu gün ərzaq məhsullarının keyfiyyətinə və təhlükəsizliyinə ciddi nəzarət, ərzaq məhsullarının satış-tədarük bazalarının və satış mərkəzlərinin, taxıl və soyuducu anbarların, qablaşdırma müəssisələrinin yaradılmasının dəstəklənməsi istiqamətində görülmüş genişmiqyaslı işlər artıq öz nəticəsini verməkdədir. Hazırda Naxçıvan bütün növ əsas ərzaq məhsulları ilə daxili tələbatını ödəyir.

Muxtar respublikamızda strateji sahə olan taxılçılığa ciddi diqqət yetirilir. Yeni suvarma şəbəkələrinin qurulması və meliorativ tədbirlərin görülməsi hesabına taxıl əkini sahələri genişləndirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov deyib: ***“Naxçıvan Muxtar Respublikasında əhalinin 70 faizi kəndlərdə yaşayır və kənd təsərrüfatı ilə məşğul olur. Bu səbəbdən də muxtar respublikada kənd təsərrüfatının inkişafına xüsusi diqqət yetirilir. Hər il müasir meliorasiya-irriqasiya sistemləri qurulur, bu hesaba yeni torpaq sahələri əkin dövriyyəsinə qatılır. Kənd təsərrüfatı texnikaları torpaq mülkiyyətçilərinə verilir, kənd təsərrüfatı təmayüllü istehsal müəssisələrinin fəaliyyəti dəstəklənir. Aydın məsələdir ki, toxumçuluğu inkişaf etdirmədən aqrar sahədə məhsuldarlığı artırmaq mümkün deyil. Ona görə də toxumçuluq təsərrüfatlarının inkişafı diqqətdə saxlanır və əkin sahələrinin becərilməsində yeni innovasiyaların tətbiqinə xüsusi diqqət yetirilir”.*** Ali Məclis Sədrinin tapşırıq və tövsiyələri, muxtar respublikada aqrar sahəyə göstərilən dövlət dəstəyi, innovativ texnologiyaların tətbiqi və elmi əsaslara söykənən layihələrin icrası kənd təsərrüfatının bütün sahələri üzrə məhsuldarlığı artırmış, əhalinin tələbatının yerli istehsal hesabına ödənilməsi təmin edilmişdir. Əkinçiliyin inkişafında keyfiyyətli toxum təminatı əsas diqqət yetirilən məsələlərdəndir. Güclü maddi-texniki bazaya və geniş əkinəyararlı torpaq sahəsinə malik olan “Bərəkət Toxumçuluq” Məhdud Məsuliyyətli Cəmiyyəti muxtar respublikanın torpaq mülkiyyətçilərini məhsuldar və keyfiyyətli toxumlarla təmin edir.

Bu gün muxtar respublikamızın hər rayonunda dəyirmanlar fəaliyyət göstərir. Sahibkarlara bu sahədə də dövlət dəstəyi yetərincədir. Kim istəsə taxıl əkir, öz dəyirmanını inşa etdirir, çörək sexi açır. Beləliklə, bu gün kəndli işini təkcə taxıl əkməklə bitmiş hesab etmir, torpaqdan süfrəyə kimi hər işi özü görür.

Məqalədəki *“Çoxumuz təsəvvür edə bilmirik ki, kəndli dən, un, yağ, pendir və digər kənd təsərrüfatı mallarının istehsalçısı olmalıdır, istehlakçısı yox”* fikirlərindəki problem də artıq həll edilib.

Belə ki, ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının əsas prioritetlərindən biri də ucqar yaşayış məntəqələrində kiçik və orta sahibkarlığın genişləndirilməsi, yeni iş yerlərinin yaradılması və özünüməşğulluğun təmin olunmasıdır. Məhz ucqar ərazilərdə bu yolla daha çox iş imkanlarının yaradılması dövlətimiz tərəfindən həyata keçirilən sosial siyasətin mühüm tərkib hissəsi kimi diqqəti cəlb edir. Bazar iqtisadiyyatı şəraitində yeni iş yerlərinin yaradılmasında özünüməşğulluq modelindən istifadə dünya təcrübəsində geniş tətbiq olunur. Yeni təsərrüfat formalarının tətbiqi xüsusi diqqət yetirilən məsələlərdən biridir. Bu, respublikamızın uğurlu inkişafını təmin edən başlıca amildir, bu istiqamətdə bir çox layihələr reallaşdırılıb və nəticələrini verib.

Muxtar respublikamızda təbii ehtiyatlardan və əmək potensialından istifadə olunmaqla bu sahənin inkişaf etdirilməsi son dövrlərdə daha intensiv şəkildə həyata keçirilir. Belə ki, ailə təsərrüfatları yaratmaqla özünüməşğulluğun təmin olunması sadə idarəetmə yolu ilə konkret bir məhsul və ya xidmətin istehsalı üzrə bazar tələbatının ödənilməsi və şübhəsiz, bunun vasitəsilə də belə təsərrüfatlarda məşğul olan insanların gəlirlərinin artırılması deməkdir. Ailə təsərrüfatlarının iqtisadi inkişafdakı bu rolunu nəzərə alaraq muxtar respublikamızda da onların fəaliyyətlərinin stimullaşdırılması, genişləndirilməsi üçün güzəştli kreditlərin verilməsi davam etdirilir. Hazırda muxtar respublikamızda 1040-a yaxın ailə təsərrüfatı vardır ki, onlardan bir çoxu iri təsərrüfatçı hesab olunur. Heyvandarlıq, quşçuluq, arıçılıq məhsullarının istehsalı, bağçılıq və bostançılıq, istixana, meyvə-tərəvəz məhsullarının konservləşdirilməsi üzrə ixtisaslaşmış və sair bu kimi sahələrdə ailə təsərrüfatları ilin bütün mövsümlərində bazara məhsul çıxarırlar.

“Məmmədtağı” Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Məmməd Tağıyev bildirdi ki, belə təsərrüfatlar təkcə özünüməşğulluq vasitəsi sayılmır. Onlar həm də geniş biznes üçün ilk təcrübə deməkdir. Bu təcrübə, xüsusən ucqar yaşayış məntəqələrində yaşayan insanların iş qurması ilə məskunlaşdığı ərazilərə məxsus olan yeni biznes imkanlarının reallaşmasına səbəb olur. Bu gün ailə təsərrüfatı ilə kiçik biznesə başlayanlar sabah fiziki şəxs, sonra isə daha böyük sahibkarlar kimi mühüm biznes layihələri reallaşdırmağa çalışırlar. Bu da sahibkarlığın daha da genişləndirilməsi və iqtisadi sahələrin şaxələndirilməsi deməkdir. Muxtar respublikamızda bütün bu müsbət cəhətlər nəzərə alınaraq ailə təsərrüfatları məşğulluq probleminin həll olunmasında, əhali gəlirlərinin həcminin artmasında müsbət bir amil kimi qiymətləndirilir. Buna görə də belə təsərrüfatların yaradılmasına üstünlük verilir. Bunu da xüsusi vurğulamaq gərəkdir ki, artıq qadınlarımız da ailə təsərrüfatları yaradırlar. Onlardan biri, dəfələrlə festivallarda yer tutmuş, yaxın günlərdə Ali Məclis Sədrinin



*Ardı 4-cü səhifədə*

müvafiq sərəncamı ilə "Əməkdar kənd təsərrüfatı işçisi" fəxri adına layiq görülən Sədərək rayon sakini Mehparə Hüseynova bildirdi ki, muxtar respublikamızda, demək olar ki, hər bir ailə pay torpaqlarına sahibdir. Bununla da torpaq mülkiyyətçiləri, fermerlər sərbəst təsərrüfatçılıq fəaliyyəti ilə məşğul olmaq, ailələrinin güzəranını yaxşılaşdırmaq imkanları qazanıblar. Kənd adamları torpaq vergisi istisna olmaqla, digər bütün vergilərdən azad ediliblər. Bütün bunlar, son nəticədə, məhsul istehsalının yüksək sürətlə artması ilə nəticələnib, əhalinin rifah halı xeyli yaxşılaşıb. Kəndlərdə yaşayan əhaliyə qayğı ilə yanaşılır, qarşılaşdıqları problem və çatışmazlıqlar yerindəcə həll edilir. Bu diqqət və qayğının nəticəsidir ki, sakinlərdə torpağa bağlılıq daha da artıb. Ruzi-bərəkətlərini ordan götürür, sağlam həyat tərzi keçirirlər. Çalışsan, əziyyət çəksən, bəhrəsini də görərsən. Ailə təsərrüfatları yaratmaq, sahibkarlıqla məşğul olmaq üçün dövlət dəstəyi də yetərincədir. Kim istəsə, kredit götürə, lizinq yolu ilə texnika ala bilir. Yaradılan şərait insanları daha çox həvəslə işləməyə və gəlir əldə etməyə sövq edir. Əkinçilikdə əsas





olan keyfiyyətli toxum və gübrələrdən istifadə etməkdir. Bu işdə də kəndlinin ən yaxın köməkçisi dövlətimizdir. Yaxşı toxum əldə etmək üçün muxtar respublikamızda lazımi şərait yaradılıb, bəzi toxumlar isə qardaş Türkiyə Respublikasından gətirilir. Gömrük sərhəd-keçid məntəqələrində biz kənd adamlarına yaradılan şərait isə, sözün əsl mənasında, alqışa layiqdir. Qardaş ölkədən gətirilən toxumlara rüsum ödənilmir. Bu da kəndliyə böyük dayaq olur. Bir sözlə, dövlətimiz torpaq əkib-becərənlərə yaxından kömək edir. Hər həftənin şənbə və bazar günləri keçirilən yarmarkalar və "Ailə təsərrüfatı məhsulları festivalı"nda bu işə öz töhfəsini verməkdədir.

Onu da qeyd etmək yerinə düşər ki, Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 iyun tarixli Fərmanı ilə təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na müvafiq olaraq hər il bitkiçilik sahəsində bitkilər və regionlara görə əkin, məhsul və toxum əmsallarının, toxum və ting kvotalarının, əkin ehtiyaclarının müəyyən edilməsi barədə qəbul edilən qərarlarla kəndliyə əkin sahəsində becərdiyi məhsullara görə subsidiyalar ödənilir.

Bu gün Naxçıvan özünün yüksəkkeyfiyyətli yerli məhsulları ilə tanınır. Bu məhsulların həcm və çeşidinin artması muxtar respublikanın istehsal və ixrac imkanlarını daha da genişləndirir. Regiondakı ailə təsərrüfatları da bu sahədə fəaliyyətlərini genişləndirməklə yaradılmış şəraitdən səmərəli istifadə edirlər.

Təsərrüfatçılığın inkişafında mühüm rol oynayan kənd yaşayış məntəqələrimizdə, hətta ən kiçik dağ kəndlərində belə, sosial problemlər öz həllini tapıb. Hər cür şəraitə malik, müasirtipli təhsil ocaqları, tibb məntəqələri, mədəniyyət obyektləri ucaldılıb. Bir vaxtlar yolu, izi olmayan dağ kəndlərinə belə, geniş abad yollar salınıb, dünənə kimi qonşu kəndlərlə əlaqəsi olmayan sərhəd yaşayış məntəqələri indi dünyanın istənilən yeri ilə rabitə əlaqəsi yarada bilir.

Bütün bunlar muxtar respublikada ümummilli lider Heydər Əliyev yolunun sədaqətlə, inamla davam etdirilməsinin bəhrələridir və görkəmli dövlət xadiminin Naxçıvanla bağlı arzu və istəklərinin ideal şəkildə gerçəkləşməsi deməkdir.

Məhz görülən işlər kənd sakinlərinin torpağa marağını daha da artırıb, yaradılan şərait isə təsərrüfatçılığın inkişafına geniş imkanlar açıb. Buna görə də *"Çıxış yolu işləməkdədir"* sərlövhəli məqalədə ürəkağrısı ilə yazıldığı kimi, *"çörəkdən tutmuş yumurtaya, ətə qədər (tapılanda) hamı şəhərdən alıb kəndə aparır"* sözləri yalnız həmin dövrün reallığı olaraq qalıb. Bu günün reallığı isə odur ki, artıq bazarlarımız kəndlərimizdən gətirilən həmin məhsullarla dolub-daşır. Yaradılan istixanalar qış aylarında da Naxçıvanda məhsul bolluğuna səbəb olub. Vətən müharibəsində əldə etdiyimiz böyük zəfərlərin nəticəsi olaraq muxtar respublikamızın ölkəmizin digər regionları ilə tranzit əlaqələrinin yaxın gələcəkdə bərpası ilə Naxçıvanda istehsalı ildən-ildə daha da artan kənd təsərrüfatı məhsullarını ölkəmizin digər bölgələrində də satışa çıxarmaq mümkün olacaq. İxrac artdıqca bu sahəyə maraq daha da artacaq, nəticədə, muxtar respublikamızda kənd təsərrüfatı yeni mərhələdə inkişaf edəcək. Zəhmət isə hər zaman öz bəhrəsini verir. Necə ki, bu gün çəkilən zəhmətin, fədakarlığın bəhrələrini görürük.

**✍ Ramiyyə ƏKBƏROVA**

## Muxtar respublikada mülki müdafiə işinin təşkili diqqət mərkəzində saxlanılır

***Hər il mart ayının 1-i Ümumdünya Mülki Müdafiə Günü kimi qeyd edilir. Bu günün qeyd olunmasında məqsəd dünya ictimaiyyətinin diqqətini mülki müdafiə xidmətlərinin təşkilinə, insanların və onların əmlakının xilası, təhlükəsizliyinin təmin edilməsi və ətraf mühitin qorunmasına yönəltməkdir.***

Ümummilli liderimiz Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə əhalinin təbii və texnogen fəlakətlərdən etibarlı mühafizəsi istiqamətində mühüm tədbirlər görülmüşdür. Bu sahədə zəruri qanunvericilik bazası yaradılmış, 1997-ci il iyunun 10-da "Yanğın təhlükəsizliyi haqqında", həmin il dekabrın 30-da isə "Mülki müdafiə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul olunmuşdur. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin diqqət və qayğısı ilə ölkəmizdə mülki müdafiə xidmətinin maddi-texniki bazası xeyli gücləndirilmiş, mütəxəssis hazırlığı günün tələbinə uyğun qurulmuşdur. 2005-ci il dekabrın 16-da ölkəmizdə Fövqəladə Hallar Nazirliyinin yaradılması ilə bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsinə başlanılmışdır.





Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2005-ci il 30 dekabr tarixli Fərmanı ilə Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin yaradılması muxtar respublikada insanların həyatının, əmlakının baş verə biləcək təbii və texnogen fəlakətlərdən qorunması baxımından atılan mühüm addımlardan biridir. Ötən illər ərzində böyük inkişaf yolu keçmiş Fövqəladə Hallar Nazirliyi və onun yerlərdəki strukturları üçün müasir inzibati binalar tikilib istifadəyə verilmiş, şəxsi heyətin sosial təminatının, o cümlədən mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində ardıcıl işlər görülmüşdür. Belə ki, 2012-ci ildə nazirliyin yeni inzibati binası istifadəyə verilmiş, binada müasir xidmət şəraiti, elektron nəzarət və idarəetmə sistemləri yaradılmışdır. Həmçinin 2008-ci ildə Dövlət Yanğın Təhlükəsizliyi İdarəsi və Naxçıvan Şəhər Şöbəsinin inzibati binası, 2009-cu ildə Kəngərli, Şahbuz, Ordubad rayon şöbələri, 2013-cü ildə Şərur və Babək rayon şöbələri, 2014-cü ildə Sədərək rayon şöbəsi, 2020-ci ildə isə Culfa rayon şöbəsi üçün yeni inzibati binalar və texniki qarajlar istifadəyə verilmiş, müasir iş şəraiti yaradılmışdır. Mülki Müdafiə Alayının təlim mərkəzində döyüş hazırlığı məşğələlərinin, təlim və məşqlərin keçirilməsi üçün hərtərəfli şərait yaradılmış, avtomobil və xüsusi təyinatlı nəqliyyat vasitələrinin saxlanması, istismarı və texniki xidmət göstərilməsi üçün müasir avtomobil parkı istifadəyə verilmiş, peşəkar xilasedicilərin hazırlanması məqsədilə təlim mərkəzi yaradılmış və onun ərazisində vertolyot meydançası tikilmişdir.

Muxtar respublika ərazisində ehtimal olunan fövqəladə hallara çevik reaksiyanın verilməsi və nəticələrinin aradan qaldırılması zamanı xüsusi riskli axtarış və qəzaxilasetmə əməliyyatlarının aparılması, zərərçəkmişlərə ilk yardım və təxirəsalınmaz tibbi yardım göstərilməsi məqsədilə 2009-cu ildə Xüsusi Riskli Xilasetmə Xidməti yaradılmış və bu sahədə fəaliyyətin nümunəvi təşkili üçün zəruri addımlar atılmışdır. Muxtar respublika ərazisində baş vermiş təbii, texnogen hadisələrin statistikasının aparılması, belə hadisələrə çevik reaksiyanın verilməsi məqsədilə Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzi və "112" qaynar telefon xətti yaradılmışdır.

Tikinti sahəsində təhlükəsizliyin təmin edilməsi məqsədilə muxtar respublikada 2010-cu ildən etibarən Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi fəaliyyətə başlamış, onun nəzdində Mühəndis-geoloji, sement və beton laboratoriyası yaradılaraq ən müasir sınaq avadanlıqları və cihazları ilə təchiz edilmişdir.

Həyata keçirilən quruculuq tədbirləri çərçivəsində şəxsi heyətin yaşayış və mənzil-məişət şəraitinin yaxşılaşdırılması da daim diqqət mərkəzində saxlanılır. Belə ki, nazirliyin zabit-gizir ailələri üçün Naxçıvan şəhərində 48 mənzilli yaşayış binası tikilmiş və 2017-ci il yanvarın 11-də Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin iştirakı ilə şəxsi heyətin istifadəsinə verilmişdir.

Nazirliyin maddi-texniki bazasının möhkəmləndirilməsi daim diqqət mərkəzində saxlanılmış, ötən il 7 yanğınsöndürmə və 2 xidməti minik avtomobili, 63 adda müxtəlif təyinatlı avadanlıq alınmışdır. Həmçinin muxtar respublika ərazisində enerji təhlükəsizliyinin təmin olunması, elektroenergetika infrastrukturunun müasir tələblər səviyyəsində qurulması məqsədilə 2 "İsuzu" markalı səyyar işıqlandırma avtomobili, su hövzələrində xilasetmə işlərinin səmərəliliyinin artırılması məqsədilə 1 "Yamaha" markalı skuter alınaraq Mülki Müdafiə Alayına təhvil verilmişdir. Mülki müdafiə alayında əsaslı təmir və yenidənqurma işləri aparılmış, istilik, su, kanalizasiya və elektrik sistemləri quraşdırılmış, yaşayış və qeyri-yaşayış binalarının dam örtükləri dəyişdirilmiş, sıra meydanlarına asfalt örtüyü salınmış, ərazidə abadlıq işləri aparılmışdır.

Nazirlik tərəfindən mütəxəssis hazırlığına xüsusi diqqət verilərək ötən tədris ilinin "Uzlaşma planı"na uyğun olaraq Mülki Müdafiə Alayının və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasediciləri "Qar uçqunlarında xilasetmə işlərinin aparılması" mövzusunda təlimlərin keçirilməsinə cəlb olunmuşdur. 2020-ci ilin avqust-sentyabr aylarında Əlahiddə Ümumqoşun Ordunun Türkiyə Silahlı Qüvvələri ilə birgə keçirdiyi taktiki təlimdə Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin bir qrup şəxsi heyəti iştirak edərək təcrübə qazanmışdır. Həmçinin Mülki Müdafiə Alayı və Xüsusi Riskli Xilasetmə Xidmətinin xilasedici dalğıclarının peşə hazırlığı keçirilən taktiki-xüsusi təlimdə təkmilləşdirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***"Fövqəladə Hallar Nazirliyi öz fəaliyyətini fövqəladə hadisələrin qarşısının alınması, bu sahədə dövlət siyasətinin həyata keçirilməsi istiqamətində qurur. Ölkəmizdə, eləcə də muxtar respublikamızda nazirliyin fəaliyyəti tam təmin olunmuş, struktur qurumları üçün müasir iş və xidmət şəraiti yaradılmışdır. İnsanların həyatının, dövlət əmlakının, fərdi təsərrüfatların və sahibkarlıq subyektlərinin baş verə biləcək hadisələrdən qorunması nazirliyin və onun müvafiq qurumlarının qarşısında duran başlıca vəzifələrdir".***

Fövqəladə Hallar Nazirliyi bundan sonra da mülki müdafiə işinin müasir tələblər səviyyəsində qurulması, əhalinin və ərazilərin fövqəladə hallardan qorunması istiqamətində zəruri tədbirləri həyata keçirəcəkdir.

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***

## Fotoslayd müsabiqəsinə yekun vurulub



Naxçıvan Dövlət Universitetində böyük şairimiz Nizami Gəncəvinin həyat və yaradıcılığından bəhs edən slaydların təqdimatına həsr olunmuş "Söz sənətinin dahisi – Nizami" adlı tədbir keçirilib. Tədbirdə çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2021-ci ilin "Nizami Gəncəvi ili" elan edilməsi haqqında Sərəncamının əhəmiyyətindən danışıb. Vurğulanıb ki, ulu öndərin təşəbbüsü və iştirakı ilə 1981-ci ildə ölməz sənətkarın 840 illik yubiley mərasimləri ölkənin mədəni həyatında əlamətdar hadisəyə çevrilib. 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində silsilə tədbirlərlə geniş şəkildə qeyd edilib. Nizami dühası hər zaman dünya şərqşünaslığının diqqət mərkəzində olub, şairin əsərlərinin nizamişünaslıqda yüksək qiymətləndirilən elmi-tənqidi mətni hazırlanıb, kitabları nəfis tərtibatda və kütləvi tirajla nəşr edilib.

Azərbaycan dili və ədəbiyyatı kafedrasının müdiri, professor Əsgər Qədimov "Nizami və Azərbaycan – Şərq intibahı" mövzusunda çıxışında dahi Nizami Gəncəvinin müxtəlif xarici ölkələrin kitabxana, arxiv və muzeylərində saxlanılan əlyazma nüsxələri, ona həsr olunan elmi-tədqiqat əsərləri barədə məlumat verib.

Universitet Tələbə-Gənclər Təşkilatının sədri, Hüquq kafedrasının müəllimi Əziz Qasımov bildirib ki, layihənin əsas məqsədi tələbələrin Nizami irsi barədə daha məlumatlı olmaları və dahi şairin yaradıcılığını daha dərindən mənimsəmələridir.

Təqdim edilən slaydlar yaradıcılıq, mövzu rəngarəngliyi, proqramlardan istifadə bacarığı baxımından dəyərləndirilib.

Sonda tələbələr diplom və kitabla mükafatlandırılıb.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

### *İtmişdir*

Şərur rayonu, Çəmənli kənd sakini Məmmədov Rakif Əbülfət oğlunun adına verilmiş JN-161[A] nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

* * *

Kərimov Zaur Əbülfət oğlunun adına olan AD-0039666 nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1500. Sifariş № 185